Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292

*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.125 *Original Article*

# ABŞ və Azərbaycan arasında iqtisadi və enerji təhlükəsizlik sahələrində əlaqələr (1992-2000)

**Əsgər Zeynalabdinov***

**ORCID:0000-0001-8835-680X**

**Xülasə**

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılmasından sonra formalaşan yeni dünya nizamında əsas güc mərkəzinə çevrilən ABŞ yeni müstəqillik əldə etmiş ölkələrlə siyasi və iqtisadi münasibətlərin qurulmasına xüsusi önəm verməyə başladı. Bu baxımdan ABŞ-Azərbaycan iqtisadi münasibətləri 1992-2000-ci illər ərzində fərqli yönümdə inkişaf etməyə başladı. 1993-cü ilə qədər olan dövrdə iqtisadi sahədə bir sıra müqavilələr imzalansa da, geniş sferada ikitərəfli iqtisadi münasibətlərə nail olunmadı. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ABŞ-Azərbaycan iqtisadi və enerji təhlükəsizlik əlaqələrində yeni mərhələnin başlanğıcını qoydu. Bundan sonra ABŞ-Azərbaycan arasında bir sıra neft yataqlarının işlənilməsi ilə bağlı müqavilələrin imzalanması iqtisadi sferada qarşılıqlı münasibətlərdə müsbət dinamikaya səbəb oldu.

**Açar sözlər:** ABŞ, Azərbaycan, neft, müqavilə, iqtisadi münasibətlər

**Gönderme Tarihi: 17/03/2021** **Kabul Tarihi:29/05/2021**

---

* *Doktorant, A.A.Bakıxanov adına Tarix İnstitutu, "Ümumi Tarix" şöbəsi, Azərbaycan, zeynalabdinov86@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ZEYNALABDINOV, Ə., ''ABŞ və Azərbaycan arasında iqtisadi və enerji təhlükəsizlik sahələrində əlaqələr (1992-2000)'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 2, 2021, s.651-663.

# Relations between the United States and Azerbaijan in the field of economic and energy security (1992-2000)

**Asgar Zeynalabdinov***

**ORCID:0000-0001-8835-680X**

**Abstract**

In the early 1990s, in the new political conditions that developed after the collapse of the Soviet Union, the United States turned into main power centre and began to pay special attention to the establishment of political and economic relations with the countries of the post-Soviet space that declared independence. In this regard, in 1992-2000, US-Azerbaijan economic relations began to develop in a different direction. Despite the fact that a number of agreements were signed in the economic sphere before 1993, bilateral economic relations of this period did not reach a high level of development. The signing of the Contract of the Century in 1994 marked the beginning of a new stage in relations between the United States and Azerbaijan in the field of economic and energy security. After that, agreements signed between the United States and Azerbaijan on the development of a number of oil fields led to positive dynamics in relations in the economic sphere.

**Keywords:** USA, Azerbaijan, oil, contract, economic relations

**Received Date: 17/03/2021** **Accepted Date: 29/05/2021**

---

* *PhD student, Azerbaijan National Academy of Sciences, History Institute, Department of "General History", Azerbaijan, zeynalabdinov86@mail.ru*

***You can refer to this article as follows:***

ZEYNALABDINOV, Ə., ‘’ABŞ və Azərbaycan arasında iqtisadi və enerji təhlükəsizlik sahələrində əlaqələr (1992-2000)’’, *Academic Journal of History and Idea,* Vol. 8, Issue 2, 2021, 2021, p.651-663.

# Отношения между США и Азербайджаном в области экономической и энергетической безопасности (1992-2000)

**Аскер Зейналабдинов***

**ORCID:0000-0001-8835-680X**

**Резюме**

В начале 1990-х годов, США в новых политических условиях, сложившихся после распада Советского Союза превратились в единственного мирового лидера и начал уделять особое внимание установлению политических и экономических отношений со странами постсоветского пространства, которые объявили о своей независимости. В связи с этим, в 1992-2000 годах американо-азербайджанские экономические отношения начали развиваться в ином направлении. Несмотря на то, что до 1993 года в экономической сфере был подписан целый ряд соглашений, двусторонние экономические отношения этого периода не достигли высокого уровня развития. Подписание «Контракта века» в 1994 году ознаменовало начало нового этапа в отношениях между США и Азербайджаном в области экономической и энергетической безопасности. Подписанные соглашения после этого между США и Азербайджаном по разработке ряда нефтяных месторождений привели к положительной динамике во взаимоотношениях в экономической сфере.

**Ключевые слова**: США, Азербайджан, нефть, контракт, экономические отношения

**Получено: 17/03/2021** **Принято: 29/05/2021**

---

* *Докторант, Национальная Академия Наук Азербайджана, Институт Истории, Отдел всеобщей истории, Азербайджан,* zeynalabdinov86@mail.ru

***Ссылка на статью:***
ZEYNALABDINOV, Ə., ‘’ABŞ və Azərbaycan arasında iqtisadi və enerji təhlükəsizlik sahələrində əlaqələr (1992-2000)’’, *академическая история и мысль,* T.8, NO.2, 2021, C.651-663.

## Giriş

Dünyanın birinci iqtisadi güc mərkəzi olan ABŞ SSRİ-nin dağılmasından sonra formalaşan birqütblü dünya sistemində Şərqi Avropa və Mərkəzi Asiyada olduğu kimi Qafqaz regionunda da fəal xarici siyasət strategiyası həyata keçirmək üçün geniş imkanlar əldə etmiş oldu. Uzun illərdən sonra müstəqillik əldə edən Qafqaz ölkələri (xüsusilə Azərbaycan və Gürcüstan) regionda yaranan ağır iqtisadi və siyasi vəziyyətin normallaşması, mövcud problemlərin aradan qaldırılması baxımından ABŞ-la çoxtərəfli əməkdaşlığın qurulması və inkişafında maraqlı idi. Bunun vacibliyini şərtləndirən ən mühüm amillərdən biri də İran və Rusiyanın təhdid və təzyiq mexanizmlərindən xilas olmaq idi. Qeyd etdiyimiz bu reallıqlara əsasən Azərbaycan Respublikası da suverenlik əldə etdikdən sonra ABŞ-la bir çox sahələrdə olduğu kimi, iqtisadi sferada da əməkdaşlığın formalaşdırılması məsələsinə xüsusi önəm verməyə başladı.

XX əsrin 90-cı illərinin əvvəllərində ölkədəki ağır siyasi vəziyyətlə yanaşı, mövcud hakimiyyətin həyata keçirdiyi xarici siyasət kursunun uğursuzluğu iqtisadi sahədə də ikitərəfli münasibətlərin qurulmasına təsirsiz ötüşmədi. Məhz buna görə də mövzunun araşdırılması ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin qurulması və inkişafını şərti olaraq iki mərhələyə bölməyə imkan verir:

-1991-1993-cü illər;

-1993-cü ildən sonrakı dövr.

Birinci mərhələdə 1992-ci ilin sentyabrında "Dənizarxası özəl investisiya korporasiyası", 1993-cü il aprelin 12-də Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında ticarət münasibətləri haqqında, elə həmin ilin sentyabr ayının 28-də isə də Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında kapital qoyuluşuna kömək haqqında sazişlər imzalandı. Bu

sənədlərdə Azərbaycana ABŞ-la əlaqələrdə "əlverişli ticarət rejimi" şəraiti və iki ölkə arasında açıq investisiya hüquqi rejimi yaradılması imkanları təsbit olunmuşdur.[1]

Beləliklə, 1991-1993-cü illəri əhatə edən birinci mərhələ ərzində iki ölkə arasında iqtisadi sahəni əhatə edən bir sıra müqavilələr bağlanıb, danışıqlar aparılsa da, bu ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin geniş sferada inkişafı ilə nəticələnmədi. ABŞ arxiv sənədlərinə [2] görə bu dövrdə Azərbaycan Qərblə iqtisadi əlaqələrin qurulmasını istəsə də, bunun erməni dezinformasiyaları ilə bağlı mümkünsüzlüyünə inanırdı.

İkinci mərhələdə isə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın neft strategiyasında yeni bir mərhələnin başlanğıcını qoydu. "Əsrin müqaviləsi" 1994-cü il sentyabr ayının 20-də Bakıda Gülüstan sarayında imzalandı. "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik bu müqavilə 4 dildə tərtib edilmişdi. Müqavilədə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bu müqavilə daha sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı. ABŞ şirkətləri-Amoko (17.01%), Yunokal (10.0489 %), Ekson (8.0006 %), Penzoyl (4.8175%) ümümilikdə 40 %-lik paya sahib oldu.[3]

## 1-İkitərəfli iqtisadi münasibətlərdə yeni mərhələ. Enerji təhlükəsizlik sahəsində əməkdaşlıq

1994-cü ildən başlayaraq dünyanın mühüm neft şirkətləri ilə bağlanan ikitərəfli müqavilələr Azərbaycanda mövcud enerji ehtiyatlarının hasilatı və ixracı üçün əlverişli mühit formalaşdırdı. Bundan sonra qarşıda duran əsas məsələ Azərneftin dünya bazarlarına təhlükəsiz daşınmasını təmin etmək idi. Təbii olaraq bu prosesdə neft sahəsində böyük pay sahibi olan ABŞ da olduqca maraqlı idi. Buna baxmayaraq rəsmi Vaşinqtonun bölgəyə daha da nüfuz etməsi İran və Rusiyanı qıcıqlandırırdı. Rusiyadan fərqli olaraq "Əsrin müqaviləsi" ndə yer almayan İran ən

---

[1] Elman Nəsirov, *Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər),* Azərbaycan Universiteti Nəşriyyatı, Bakı 1997, s. 92.
[2] Herbert Walker George Bush, *Bush Presidential Records,* National Security Council, stack: V, row 9, section 5, p.1.
[3] E Nəsirov, *a.g.e.,*s. 99.

azından Azərbaycan enerji ehtiyatlarının ixracında əsaslı rol oynamaq niyyətində idi. Elə bu reallıqdan çıxış edən rəsmi Tehran neftin Bakı-Bəsrə ixrac boru kəmərinin reallaşması vasitəsilə daşınmasını təklif etdi.

Qeyd edilən məsələdə heç də İrandan geri qalmayan rəsmi Moskva isə neftin daşınması üçün Bakı-Novorosiysk neft kəmərinin yetərli olduğunu bildirdi. İran tərəfindən irəli sürülən bu təklif nə ABŞ, nə də Azərbaycan hökümətləri tərəfindən qəbul edilmədi. Bəs buna səbəb olan amillər nə idi? Nəyə görə Azərbaycan mövcud enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında İran deyil, ABŞ və Türkiyə ilə əməkdaşlığa üstünlük verərək, yeni neft kəmərinin çəkilməsinin reallaşmasına çalışırdı? Fikrimizcə, bunu aşağıda qeyd etdiyimiz amillərlə izah etmək olar:

- Ölkədəki mövcud zəngin enerji ehtiyatlarından səmərəli istifadə etmək;
- Ölkə iqtisadiyyatının yüksək inkişafının təmini ilə Azərbaycanın iqtisadi və hərbi gücünü artırmaq;
- Dağlıq Qarabağ məsələsinin beynəlxalq müstəvidə müzakirəsinə nail olmaq;
- Azərbaycanın təhlükəsizliyini təmin etmək.

Qeyd etdiyimiz bu reallıqlar Azərbaycanı vurğuladığımız məsələdə daha təkidli mövqe tutmağa vadar edirdi. ABŞ isə Sovet İttifaqının iflasından sonra İranı təsir gücünün məhdudlaşdırılması və enerji lahiyələrində yer almaması gərəkən bir ölkə kimi dəyərləndirdi.[4]

Bu baxımdan ABŞ diplomatları Stefen Sestanoviç və Mark Qrosman Xəzər dənizindəki enerji resurslarının daşınmasında İran variantına qarşı çıxış edərək, bir sıra şirkətlərin bu sahədəki fikirlərinin dəyişməsinə nail oldular. Stefen Sestanoviç İran variantının məntiqsiz olduğunu qeyd etməklə, ölkələrin enerji ehtiyatlarının ixracında Rusiya kimi, İrana da bağlılıqlarının yaxşı olmadığını vurğuladı. Mark Qrossman isə İrandan keçəcək boru xəttinin nəinki riskli olduğunu, bununla yanaşı enerji ehtiyatlarının çox az ölkənin nəzarətində olmasına yol açacağı ilə heç kimin mənafeyinə uyğun olmayacağını qeyd etdi.[5]

Fikrimizcə, belə şəraitdə rəsmi Vaşinqton həm İran, həm də Rusiya məngənəsində sıxılan Cənubi Qafqaz regionunun inkişafına nail olmaqla, bölgədə öz hərbi, siyasi və iqtisadi mövqelərini gücləndirmək istəyində israrlı olduğundan, həm də Xəzərdəki mövcud mövcud

---

[4] Kamer Kasım, *Soğuk savaş sonrası Kafkasya*, USAK yayınları, Ankara 2011, s.143.
[5] K. Kasım, *a.g.e.*, s.170.

enerji ehtiyatlarını Körfəz kimi önəmli hesab etdiyindən neft ehtiyatlarının yeni boru xətti ilə daşınmasının tərəfdarı idi.

1995-ci ilin oktyabrında ABŞ Prezidentinin Milli Təhlükəsizlik üzrə məsləhətçisi Brent Skoukroft qeyd etdi ki, Azərbaycan ABŞ-ın milli maraqları üçün vacidir və o böyük təhlükədədir. Əsas təhlükə mənbələri isə Rusiya və İrandır. Belə ki, Rusiya yenə də başqa keçmiş sovet respublikaları kimi, Azərbaycanı da öz mülkiyyəti hesab edir. Bu baxımdan Rusiya hesab edir ki, Azərbaycan neftindən necə istifadə olunması haqqında öz fikrini bildirməlidir. İrana gəldikdə isə Azərbaycan "Əsrin müqaviləsi"ndə rəsmi Tehrana yer vermədikdən sonra İran Ermənistanla daha da yaxınlaşır ki, Azərbaycana təzyiq göstərsin.[6]

1995-1999-cu illərdə dünyanın bir sıra mühüm neft şirkətləri ilə müqavilələr imzalandı. Belə ki, 1995-ci ilin noyabr ayının 10-da "Qarabağ" yatağının istismarı ilə bağlı dörd xarici şirkətlə 25 il müddətinə müqavilə imzalandı. ABŞ-ın Penzoyl şirkətinin payı 30% oldu. 1996-cı ilin 4 iyulunda imzalanan Şah dəniz layihəsində yer almayan ABŞ, həmin ilin dekabrında "Dan ulduzu" və "Əşrəfi" yataqlarının işlənilməsi ilə bağlı müqavilələrdə Amoko 30 %, Yunokal 25.5 % şirkətləri ilə pay sahibi oldu. Vaşinqtonda ABŞ-ın Şevron, Fransanın Total və Azərbaycanın Socar şirkəti arasında 1997-ci ildə imzalanan "Abşeron" müqaviləsində isə Şevron 30% pay sahibi oldu.[7]

1999-cu ilin aprel ayının 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə imzalanan Bakı-Supsa neft kəməri, Qara dəniz sahilində Gürcüstanın Supsa ixrac terminalının işə düşməsinə yol açdı. Bu kəmərin işə salınması, daha sonra isə Bakı-Tbilisi-Ceyhan kəmərinin çəkilməsində dair müqavilənin imzalanması "Əsrin müqaviləsi" nəticəsində ortaya çıxan yeniliklər oldu.[8] Elə həmin ilin noyabr ayında İstanbulda ATƏT-in sammitində Türkmənistan, Qazaxıstan, Gürcüstan, Azərbaycan, Türkiyə və ABŞ BTC boru kəmərini dəstəklədiklərini bildirdilər. 2003-cü ildə isə boru kəmərinin çəkilişinə başlanıldı.[9]

---

[6] *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Tarix-Arxiv İdarəsi, fond 26, siyahı 11*, s.83
[7] Elnur Cemilli, *ABD'nin Güney Kafkasya politikası,* IQ Kültur Sanat Yayıncılıq, İstanbul 2007, s.72-74.
[8] Xanhüseyn Kazımlı, *Yeni əsrə keçidin iqtisadi panoramı,* Neft strtategiyası və Azərbaycan iqtisadiyyatı, Bakı 2000.
[9] Necati İyikan, *Orta Asya ve Güney Kafkasya siyasi gelişmeler (1991-2010),* Hiperlink Yayınları, İstanbul 2011, s.257.

Qeyd edək ki, bəzi Qərb şirkətlərinin müxalifliyinə və ABŞ-dakı güclü erməni lobbisinin təzyiqlərinə baxmayaraq, rəsmi Vaşinqton Bakı-Tbilisi-Ceyhan neft boru xəttinə siyasi və iqtisadi cəhətdən dəstək verərək, Türkmənistanı Transxəzər qaz boru xətti ilə qaz ixrac etməyə yönləndirmiş və bununla da Rusiya və İran xaricində təbii qazın Avropaya nəqlinə çalışmışdır.[10]

Bu baxımdan rəsmi Vaşinqton Bakı-Tbilisi-Ərzurum qaz xətti kəmərinə də dəstək vermişdir. Belə ki, ABŞ Prezidenti və Dövlət Katibinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə xüsusi məsləhətçisi Con S.Volf 2000-ci ilin 4 oktyabrında Qazaxıstanın Alma-Ata şəhərində çıxışı zamanı bildirdi ki, ABŞ Azərbaycan qazının Türkiyə vasitəsilə Avropaya nəql edilməsini dəstəkləyir.[11] Bütün qeyd etdiyimiz bu reallıqlar ABŞ-Azərbaycan arasında enerji təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirdi.

### 2- İqtisadiyyatın digər sahələrində ikitərəfli əməkdaşlıq

XX əsrin 90-cı illərinin ortalarından başlayaraq ABŞ-Azərbaycan arasında iqtisadiyyatın digər sferalarında da əməkdaşlıq genişləndi. 1996-ci ildə Dövlət şirkəti Azərsell tikinti ilə Amerikan şirkəti "Em Ay Si İndatris" arasında 1071 min dollar dəyərində müqavilə bağlandı. Bunun əsasında Mingəçevir şəhərində 100 qaçqın ailəsi üçün 10 ev tikildi. 1997-ci ilin aprelin 27-də isə Azərbaycan Respublikası ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında Bakıda ürək-damar xəstəliklərinin müalicəsi üzrə Maykl Debeyki və Heydər Əliyev adına mərkəzin tikintisinin texniki-iqtisadi əsaslarının hazırlanması barədə müqavilələr imzalandı.[12] Bundan başqa Azərqızıl Dövlət Şirkəti və Amerikan kompaniyası "R.V. İnvestment" servis qrupu Azərbaycan Respublikasının Gədəbəy, Qoşa, Ordubad qrupu (Ağyurd, Şəkərdərə, Kələki), Söyütlü, Qızılbulaq və Vejnəli kimi perspektivli qızıl yataqlarının kəşfiyyatı, işlənməsi və əldə ediləcək məhsulun pay bölgüsü haqqında ilkin razılığa imza atdılar. Razılığa görə bölgüdə Azərqızılın payı 51%, İnvestmentin payı isə 49 % olmalı və layihənin xərclərini investor üzərinə götürürdü.[13] Bağlanan bu müqavilələr, o cümlədən ABŞ tərəfindən Azərbaycana edilən maliyyə

---

[10] Haluk Alkan, *Azerbaycan paradoksu: çarpaz baskılar altında azerbaycanda siyasal sistem ve dış politika,* Usak Yayınları, Ankara 2010, s.124.

[11] John S. Wolf, *Special Advisor to the President and the Secretary of State for Caspian Basin Energy Diplomacy, Remarks, Kazakhstan Oil and Gas Exposition,* Almaty, October 4, 2000

[12] *Sülh və Təhlükəsizlik naminə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubleyi ilə əlaqədar ABŞ-a səfəri,* 22-27 aprel, 1999-cu il, s.50.

[13] *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Tarix-Arxiv İdarəsi, fond 26, siyahı 11,* s.84

yardımları təkcə neft sferasında deyil, iqtisadiyyatın digər sahələrində də ABŞ-Azərbaycan münasibətlərinin inkişafının göstəricisi idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ilin 27 iyul-6 avqust tarixlərində ABŞ-a rəsmi səfəri də iqtisadi əlaqələrin inkişafına yeni təkan verdi. Səfər zamanı 5 mühüm sənəd-Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat, Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilə, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə Birgə Bəyanat, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat, Layihələrin təşviqinə dair Baş Saziş imzalandı.[14] Bundan sonra isə Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası hökuməti onların gömrük idarələri arasında qarşılıqlı yardım haqqında 14 maddəlik Saziş bağlandı. Qeyd edək ki, bu saziş yalnız tərəflər arasında qarşılıqlı hüquqi yardım üçün nəzərdə tutulmuşdur. Sazişin müddəaları hər hansı dəlilin hər hansı özəl şəxş tərəfindən əldə olunmasına, gizlədilməsinə, istisna edilməsinə və ya sorğunun icra olunmasına maneçilik törədilməsinə hüquq vermir. Sazişə əsasən sorğu əsasında gömrük idarələri bir-birinə bir tərəfin ərazisindən ixrac olunmuş malların digər tərəfin ərazisinə qanuni yolla idxal olunması barədə məlumat verəcəklər. Tələb olunduqda məlumata malların rəsmiləşdirilməsində istifadə olunan gömrük proseduru daxil ediləcəkdir. Onu da vurğulamaq lazımdır ki, tərəflərin qarşılıqlı razılığı əsasında sazişə əlavələr və dəyişikliklər edilə bilər.[15] Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, hələ səfər ərəfəsində Amerika-Avrasiya ticarət palatasının prezidenti Helen Toplitskaya, sədri Tomas M. Cons, Çikaqodakı mühüm ABŞ koorpersiyalarından birinin sədri və baş icraçı direktoru Robert Burt və digər bu kimi cəmiyyət və palatalardan Azərbaycan Prezidenti Heydər Əliyevə qarşılıqlı əməkdaşlıq münasibətlərinin qurulması məqsədilə dəvət məktubları gəldi.

Çikaqodakı mühüm ABŞ koorpersiyalarından birinin sədri və baş icraçı direktoru Robert Burt Prezident Heydər Əliyev göndərdiyi 1997-ci il 9 iyun tarixli məktubunda bildirirdi ki, Azərbaycanın enerji və kənd təsərrüfatı sektorlarına bizim güclü marağımız vardır. Bizim

---

[14] *Azərbaycan Respublikası Qanunvericilik Toplusu-1997-ci il*, Azərbaycan Respublikası Prezidentinin nəşri, Bakı, s.577.
[15] *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Tarix-Arxiv İdarəsi, fond 26, siyahı 11,* s.203-208

Çikaqodakı işguzar dairələrimiz sizin ölkə üçün ticarət və sərmayə qoyuluşu siyasətini bilavasitə Sizinlə müzakirə etmək imkanımızı alqışlardı. Bütün bunlar ABŞ-da artıq bu dövrdə Azərbaycana marağın artdığını göstərirdi. Bu da təbii ki, Azərbaycan diplomatiyasının böyük uğuru idi.

Amerikalı politoloq Zbiqnev Bjezinski Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfərini Amerikanın Qafqazda yeritdiyi regional siyasətdə yeni mərhələnin başlandığını sübut edən tarixi bir hadisə hesab etmişdir. Onun fikrinə görə belə bir səfərin baş tutması üçün dörd illik diplomatik səy göstərilib və gərgin iş aparılıb.[16]

ABŞ-Azərbaycan münasibətlərində mühüm rol oynayan layihələrdən biri də "İpək yolu" layihəsidir. Bu layihə ilə bağlı olaraq ABŞ Prezidenti Bill Klinton 1999-cu ilin 17 aprelində senator Sem Braunbekə yazdığı xüsusi məktubda qısaca olaraq bildirdi ki, Birləşmiş Ştatların məqsədi Qafqazın və Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinə kömək etməkdir. Bu gənc ölkələr sabitliyə, demokratiyaya və tərəqqiyə can atdıqlarını bəyan edirlər. Biz onlarla birlikdə olsaq, onların bu səylərinə öz töhfəmizi verə bilərik. Birləşmiş Ştatlar Qafqazda və Mərkəzi Asiyada fəal və tarazlaşdırılmış rol oynamaqda davam edərək, Dağlıq Qarabağda sülhə nail olmağı dəstəkləməlidir.[17]

Senator Sem Braunbək "İpək yolu" layihəsi haqqında nəlumat verərək, bildirdi ki, yeni İpək yolu Asiyanı Avropa və dünyanın qalan hissəsi ilə birləşdirir. İpək yolu üzərindəki Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri tarixi yol ayrıcındadırlar; onlar müstəqildirlər; müasir dünyanın əsas qüvvələrinin qovuşuğunda yerləşirlər; təbii ehtiyatlarla zəngindirlər. Onlar İranın və digər ekstremist dövlətlərin antiqərb, davakar təməlçiliyinin və terrorizminin yayılmasının qarşısında əsas çəkindirici qüvvələrdən biridir. Ən başlıcası odur ki, kommunizm ilə uzun mübarizədən sonra bu regionun qapıları açılıb ki, ABŞ şəxsiyyət hüququna təminat verəcək və dini dözümlülük də daxil olmaqla plüarist cəmiyyətlərin yüksəlməsi üçün şərait yaratmağa kömək edəcək təsisatları dəstəkləyə bilsin.[18]

---

[16] Əli Həsənov, *Azərbaycan-ABŞ anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997),* Azərbaycan Universiteti Nəşriyyatı, Bakı 1997, s.190.

[17] *Sülh və Təhlükəsizlik namin, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubleyi ilə əlaqədar ABŞ-a səfəri,* 22-27 aprel, 1999-cu il, s. 70.

[18] *Sülh və Təhlükəsizlik naminə, s.* 71.

Qeyd edək ki, İpək yolu Qərb ilə Cənubi Qafqaz və Mərkəzi Asiya arasında önəmli əlaqədir. Bu Qara və Xəzər dənizlərindən keçməklə, Qazaxıstandan Gürcüstana, oradan isə Avropaya yönəlir.

Beləliklə, ikinci mərhələdə aparılan danışıqlar, imzalanan bir sıra mühüm müqavilələr, həyata keçirilən tədbirlər və icra edilən layihələr ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin gələcək inkişafı zəmnində ölkələrarası ticarət dövriyyəsinin artmasına şərait yaratdı.

**Nəticə**

Beləliklə, 1991-1993-cü illərdən fərqli olaraq, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra aparılan danışıqlar, imzalanan bir sıra mühüm müqavilələr, həyata keçirilən tədbirlər və icra edilən layihələr ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin gələcək inkişafına müsbət zəmin yaratdı.

Azərbaycan tərəfindən yeridilən uğurlu xarici siyasət strategiyası nəticəsində ABŞ-ın ən mühüm şirkətlərinin ölkədəki beynəlxalq neft-qaz layihələrinə cəlb edilməsi bu sferanın inkişafına təsir göstərməklə yanaşı, ABŞ-ın Azərbaycanan yönəlik siyasətində dəyişikliyə səbəb oldu. Azərneftin dünya bazarlarına çatdırılmasını təmin etmək üçün ABŞ-ın iştirakı ilə reallaşdırılan mühüm layihələr Azərbaycanın iqtisadi potensialını gücləndirməklə yanaşı, ölkənin təhlükəsizliyinin təminində əsaslı roy oynadı.

## İstifadə edilmiş ədəbiyyat

*Azərbaycan Respublikası Qanunvericilik Toplusu-1997-ci il, №3*, Azərbaycan Respublikası Prezidentinin Nəşri, Bakı 1997.

*Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Tarix-Arxiv İdarəsi, fond 26, siyahı 11.*

HƏSƏNOV, Ə., *Azərbaycan-ABŞ anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997)*, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı 1997.

NƏSIROV, E., *Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər),* Qanun, Bakı 1998.

KAZIMLI, X., *Yeni əsrə keçidin iqtisadi panoramı. Neft strtategiyası və Azərbaycan iqtisadiyyatı*, Azərbaycan qəz., Bakı 2000, 22 noyabr.

ALKAN, H., *Azerbaycan paradoksu: çarpaz baskılar altında azerbaycanda siyasal sistem ve dış politika,* USAK yayınları, Ankara 2010.

CEMILLI, E., *ABD'nin Güney Kafkasya politikası,* IQ Kültur Sanat Yayıncılıq, İstanbul 2007.

İYIKAN, N., *Orta Asya ve Güney Kafkasya siyasi gelişmeler (1991-2010),* Hiperlink yayımları, İstanbul 2011.

KASIM, K., *Soğuk savaş sonrası Kafkasya*, USAK yayınları, Ankara 2011.

*Sülh və Təhlükəsizlik naminə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubleyi ilə əlaqədar ABŞ-a səfəri,* 22-27 aprel, 1999-cu il, Bakı 2000.

GEORGE, H, W., *Bush Presidential Records,* National Security Council, stack: V, row 9, section 5.

JOHN S,W., *Special Advisor to the President and the Secretary of State for Caspian Basin Energy Diplomac, Remarks, Kazakhstan Oil and Gas Exposition*, Almaty 2000.
.